5 mart 2023-cü il tarixində keçirilən imtahanda istifadə edilən tapşırıqlar

English

Listen to the passage and answer questions 1 – 6.

John Tolkien is a worldwide known author of books of fantasy fiction. The most famous of his books are "The Hobbit" and "The Lord of the Rings". He was born in South Africa. Since his childhood, he loved learning different languages. Tolkien's mother was his first teacher. His mother taught him Latin, French, and German. By the age of four, Tolkien could read in English fluently. Tolkien studied at Exeter College. He graduated with a first-class honors degree in English language and Literature. Later he began teaching at Oxford University. His courses were about the roots of the English language. During this time Tolkien began writing fantasy stories. Part of this writing included creating a new language called Elvish. The characters called elves in Tolkien's stories spoke this language.

Tolkien loved travelling as well. He was greatly impressed by his travel to Switzerland. Its beautiful nature and landscape greatly influenced him. Later he used the landscape and nature of Switzerland as a setting in his books.

1. Complete the sentence according to the passage.
By the age of four, Tolkien … .
A) could write fantasy stories
B) could speak only German
C) had made up the "Elvish" language
D) had completed writing "The Hobbit"
E) could read in English fluently

Tapşırığın izahı: *1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır. (10-cu sinif)*
Bu, qapalı tipli test tapşırığıdır. Burada verilmiş cümləni dinləmə mətninə əsasən tamamlamaq tələb olunur. Mətnə əsasən cümlə **"By the age of four, Tolkien could read in English fluently"** kimidir. Buna görə də test tapşırığının doğru cavabı E bəndində verilmişdir.

2. Which statement is true according to the passage?
A) Tolkien's mother studied at Exeter College.
B) The elves in Tolkien's stories couldn't speak any language.
C) Tolkien graduated with a first-class honours degree in the Latin language.
D) Tolkien's courses were about the roots of the English language.
E) Tolkien was taught the Elvish language when he was a child.

Tapşırığın izahı: *1.1.2. Dinlədiyi mətndəki fakt və hadisələri qruplaşdırır, ümumiləşdirmələr aparır. (10-cu sinif)*
Bu, qapalı tipli test tapşırığıdır. Burada dinləmə mətninə əsasən doğru fikri seçmək tələb olunur. Verilən variantlar arasında tək doğru fikir "**Tolkien's courses were about the roots of the English language**." olduğu üçün test tapşırığının doğru cavabı D bəndidir.

3. The passage is mainly about … .
A) John Tolkien's travel to Switzerland
B) the creation of a new language
C) John Tolkien's first teacher
D) the famous author of fantasy books
E) the characters of John Tolkien's stories

Tapşırığın izahı: *1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyən edir. (7-ci sinif)*
Bu, qapalı tipli test tapşırığıdır. Burada dinləmə mətninin, əsasən, nədən bəhs etdiyini müəyyən etmək tələb olunur. Mətndə, əsasən, fantastika janrında yazılmış kitabların müəllifindən bəhs olunduğu üçün test tapşırığının doğru cavabı D bəndində verilmişdir.

4. Write the correct answer to the question according to the passage.
What influenced Tolkien in Switzerland?

Tapşırığın izahı: *1.1.1. Müraciətlər zamanı sadə sualları cavablandırır. (5-6-cı siniflər)*
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır. Burada verilən suala mətnə əsasən cavab vermək tələb olunur. Burada sualın cavabı mətnə əsasən yazılmalıdır. Verilmiş sualın cavabı növbəti cümlədə ifadə olunmuşdur: **"Its beautiful nature and landscape greatly influenced him."** Bu cümləyə əsasən tapşırığın doğru cavabı "beautiful nature and landscape" söz birləşməsidir.

5. Complete the sentence according to the passage.
Since his childhood, he loved … .

Tapşırığın izahı: 1.1.1. Müraciətlər zamanı sadə sualları cavablandırır. (5-6-cı siniflər)
4.1.3. Sözləri orfoqrafiya qaydalarına uyğun yazır. (6-cı sinif)
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır. Burada verilmiş cümləni mətnə əsasən tamamlamaq tələb olunur. Mətndə bu cümlə **"Since his childhood, he loved learning different languages."** kimidir. Buna görə də tapşırığın doğru cavabı "learning different languages" söz birləşməsidir.

6. Write one adjective from the passage that describes the word "*books*".

Tapşırığın izahı: *3.1.1. Söz və ifadələri qrammatik-semantik xüsusiyyətlərinə görə fərqləndirir. (8-ci sinif)*
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır. Burada verilən sözü mətndə təsvir edən sifəti yazmaq lazımdır. "books" sözü mətndə növbəti cümlənin daxilində işlənmişdir: **The most famous of his books** are "*The Hobbit"* and "*The Lord of the Rings"*.Bu cümləyə əsasən bu tapşırığın doğru cavabı "famous" sifətidir.

7. Make up a sentence.
1. electricity
2. important
3. to turn off
4. leaving
5. it's
6. before

A) 6, 2, 5, 1, 3, 4
B) 5, 6, 4, 1, 3, 2
C) 3, 1, 4, 6, 5, 2
D) 5, 2, 3, 1, 6, 4
E) 2, 1, 6, 4, 5, 3

Tapşırığın izahı: Bu, cümlədüzəltmə bölməsinə aid olan qapalı tipli test tapşırığıdır. Verilmiş sözlərin düzgün ardıcıllığını müəyyən edərək cümlə qurmaq tələb olunur. Test tapşırığının doğru cavabı D bəndində verilmişdir.

8. Choose the correct variant.
Jeremy ... late for his classes if he ... early.
A) won't be, won't get up
B) will be, doesn't get up
C) is, will get up
D) will be, gets up
E) will be, won't get up

Tapşırığın izahı: Bu, feilin zaman formaları bölməsinə aid olan qapalı tipli test tapşırığıdır. Burada verilmiş şərt budaq cümləsini feilin düzgün forması ilə tamamlamaq tələb olunur. Cümləyə baxdıqda görürük ki, budaq cümlədə "if" bağlayıcısından istifadə olunur, bu isə o deməkdir ki, budaq cümlənin feili indiki sadə zamanda (present simple) olmalıdır. Belə olan halda, baş cümlənin feili isə gələcək sadə zaman formasında (future simple) işlənir. Buna görə də test tapşırığının doğru cavabı B bəndində verilmişdir.

9. Choose the synonym of the word "*hard-working*".
A) diligent B) tolerant C) rude
D) reliable E) hospitable

Tapşırığın izahı: Bu, leksika bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilən "hard-working" sözünün sinonimini seçmək tələb olunur. "Hard-working" sözü "çalışqan" mənasını ifadə edir, verilən variantlar arasında yalnız "diligent" sözü bu mənanı ifadə edir. Buna görə də test tapşırığının doğru cavabı A bəndində verilmişdir.

10. Change the sentence into the Passive Voice.
I lost my gloves while going home.
A) My gloves lost while going home.
B) My gloves were lost while going home.
C) I am lost my gloves while going home.
D) My gloves are lost while going home.
E) I was lost my gloves while going home.

Tapşırığın izahı: Bu, feilin məchul növü bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilmiş "I lost my gloves while going home." cümləsi məlum növdə verilmişdir, bu cümləni məchul növə çevirmək tələb olunur. Məchul növə çevirən zaman cümlə "My gloves were lost while going home." kimi dəyişilməlidir. Buna görə də test tapşırığının doğru cavabı B bəndində verilmişdir.

11. Choose the correct variant.
Wow! It is ... parrot in this pet shop.
A) more colourful
B) most colourful
C) the most colourful
D) colourful
E) much colourful

Tapşırığın izahı: Bu, sifət bölməsinə aid olan qapalı tipli test tapşırığıdır. Verilmiş cümləni tamamlamaq üçün sifətin düzgün dərəcəsini müəyyən etmək lazımdır. Test tapşırığının doğru cavabı C bəndində verilmişdir.

12. Choose the correct interrogative sentence.
A) How many buildings your company built?
B) How many buildings did your company build?
C) How many buildings did built your company?
D) How many buildings did your company built?
E) How many buildings your company did built?

Tapşırığın izahı: Bu, sual sözləri, sual cümlələri bölməsinə aid olan qapalı tipli test tapşırığıdır. Burada düzgün sual cümləsinin verildiyi variantı seçmək tələb olunur. A, C, D və E variantlarında verilmiş sual cümlələrində feil düzgün formada işlənməmişdir. Buna görə də test tapşırığının doğru cavabı B bəndidir.

13. Complete the sentence.
The manager asks ... .
1. whom did she write the business letters
2. by whom the business letters were written
3. by whom were the business letters written
4. who wrote the business letters

A) 1, 4 B) 1, 2 C) 2, 3 D) 2, 4 E) 1, 3

Tapşırığın izahı: Bu, mürəkkəb tamamlıq bölməsinə aid qapalı tipli test tapşırığıdır.

Burada verilmiş cümləni tamamlamaq tələb olunur. Mürəkkəb tamamlıq istifadə edilən cümlələrdə söz sırası nəqli cümlədə olduğu kimidir. Buna görə də verilən cümlələrdən 2-ci və 4-cü cümlələr doğrudur. Beləliklə test tapşırığının doğru cavabı D bəndidir.

14. Choose the correct variant.
Let's have a weekend in the country … the weather gets better.
A) although B) or C) if D) but E) though

Tapşırığın izahı: Bu, bağlayıcı bölməsinə aid qapalı tipli test tapşırığıdır. Verilmiş cümləni müvafiq bağlayıcı ilə tamamlamaq tələb olunur. Verilmiş cümlənin tərcüməsi "Hava yaxşılaşsa, həftəsonunu kənddə keçirək." olduğu üçün burada "if" bağlayıcısından istifadə olunmalıdır. Digər bağlayıcıların məna etibarilə istifadəsi doğru deyil. Buna görə də test tapşırığının doğru cavabı C bəndidir.

15. Choose the correct variant.
Sue let me … her computer for playing games.
A) using B) uses C) use
D) to use E) used

Tapşırığın izahı: Bu, feilin şəxssiz formaları bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilmiş cümlədə "to let" feilindən sonra feilin düzgün formasının işlədilməsi tələb olunur. "To let" feilindən sonra gələn feil "to" istifadə olunmayan məsdər formasında olur. Bu qaydaya əsasən testin doğru cavabı C bəndində verildiyi kimidir.

16. Choose the correct variant.
The child is thirsty. You … give him some water.
1. should 2. are able
3. mustn't 4. must
5. ought
A) 2, 4, 5 B) 3, 4 C) 2, 3
D) 1, 4 E) 1, 3, 5

Tapşırığın izahı: Bu, modal feillər bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilmiş birinci cümlənin ("The child is thirsty.") mənasına uyğun olaraq növbəti cümləni ("You … give him some water.") müvafiq modal feillərlə tamamlamaq tələb olunur. Mənaya uyğun olaraq ikinci cümlədə "should" və "must" modal feilləri işlənməlidir. Verilmiş digər modal feillər həm məna, həm də qrammatik cəhətdən uyğun deyil. Test tapşırığının doğru cavabı D bəndində verilmişdir.

17. Choose the correct variant.
… asks if … house is mine.
A) We, this B) She, these C) He, those
D) They, those E) She, that

Tapşırığın izahı: Bu, əvəzlik bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilmiş cümləni müvafiq əvəzliklərlə tamamlamaq tələb olunur. Baş cümlədə cümlənin xəbəri III şəxsin təkində "–s" qəbul etdiyi üçün baş cümlənin mübtədası III şəxsin təkində olmalıdır. Budaq cümlədə isə "house" sözünü ifadə edən işarə əvəzliyi yazılmalıdır, "house" sözü təkdə olduğu üçün onun qarşısında təkdə olan işarə əvəzliyi istifadə olunmalıdır. Buna görə də test tapşırığının doğru cavabı E bəndidir.

18. Choose the correct variant.
Ann's mother isn't at home. … .
A) Neither isn't her granny
B) So is her granny
C) Neither is her granny
D) So isn't her granny
E) Her granny isn't too

Tapşırığın izahı: Bu, "Neither do I, So do I" tipli cümlələr bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada birinci cümləyə ("Ann's mother isn't at home.") uyğun olaraq doğru cavabı seçmək lazımdır. Verilmiş cümlə inkarda olduğu üçün ona verilən cavab da inkarda olmalıdır. Lakin nəzərə alınmalıdır ki, "Neither" ilə başlanan cümlələrdə cümlənin feili təsdiq formada olmalıdır. Buna görə də test tapşırığının doğru cavabı C bəndində verilmişdir.

19. Choose the correct variant.
My family lived … Spain for a year, when I was a child.
A) on B) at C) between D) for E) in

Tapşırığın izahı: Bu, sözönü bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilmiş cümləni müvafiq sözönü ilə tamamlamaq tələb olunur. Cümlədə "to live" feilindən sonra ölkə adı verildiyi üçün "in" sözönüsündən istifadə olunmalıdır. Buna görə də test tapşırığının doğru cavabı E bəndində verilmişdir.

20. Choose the correct variant.
A) How difficult questions are!
B) How the difficult questions are!
C) How are the difficult questions!
D) How difficult questions they are!
E) How difficult the questions are!

Tapşırığın izahı: Bu, nida cümlələri bölməsinə aid qapalı tipli test tapşırığıdır. Verilmiş cümlələr arasından düzgün nida cümləsi strukturu olan cümlə yalnız "How difficult the questions are!" cümləsidir, çünki "How" sözü ilə başlanan nida cümlələrində isimlərdən əvvəl "the" artikli işlənir və cümlə "to be" feilinin müvafiq forması ilə bitir. Buna görə də test tapşırığının doğru cavabı E bəndində verilmişdir.

21. Choose the derivative nouns.

1. agreement
2. grace
3. generosity
4. motherland
5. imagination
6. sweatshirt

A) 1, 5, 6 B) 2, 4, 6 C) 1, 2, 4
D) 2, 3, 5 E) 1, 3, 5

Tapşırığın izahı: Bu, isim bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilmiş 6 isim arasından düzəltmə isimləri seçmək tələb olunur. Verilmiş "grace" sözü sadə isim, "motherland" və "sweatshirt" isimləri isə mürəkkəb isimlərdir. "agreement", "generosity" və "imagination" isimləri isə düzəltmə olduğu üçün test tapşırığının doğru cavabı E bəndində verilmişdir.

22. Choose the correct variant.

He is one of … youngest scientists in … world.

A) the, the B) a, the C) –, the
D) the, – E) the, a

Tapşırığın izahı: Bu, artikl bölməsinə aid qapalı tipli test tapşırığıdır. Burada verilmiş cümlədəki boşluqları müvafiq artikllərlə tamamlamaq tələb olunur. Sifət üstünlük dərəcəsində olduğu zaman qarşısında mütləq "the" artikli işlənir, "world" sözü də tək, yeganə məfhumu bildirdiyi üçün qarşısında "the" artikli işlənməlidir. Buna görə də test tapşırığının doğru cavabı A bəndində verilmişdir.

Read the passage and answer questions 23 – 30.

1. Edinburgh Castle was built on an extinct volcano. It was home to kings and queens for many centuries. Queen Margaret, who later became a saint (holy person), died here in 1093. It is said that she died from a broken heart after her husband's death. Queen Margaret's son King David I built St. Margaret's Chapel to her memory. This Chapel is located inside the walls of the castle. It is the oldest building in Edinburgh. Today weddings and other ceremonies are still held in St. Margaret's Chapel.

2. Edinburgh Castle's Great Hall has a small window high above the fireplace. It is known as "laird's lug" which means "the lord's ear". Through the window the residents of the castle could secretly listen to the conversations held in the Great Hall.

3. The castle was once a bank where the nation's records were kept. Jewels and treasures of the country and also from all over the world were kept here. The traditional crowning stone of Scottish and English kings and queens is the "Stone of Destiny". It is still among the crown jewels kept in Edinburgh Castle. There is a legend that the real stone was secretly changed to a fake one in its history.

23. The passage is mainly about … .

A) treasures kept in Edinburgh Castle
B) the history of St. Margaret's Chapel
C) the legend about the "Stone of Destiny"
D) one of the historical places in Edinburgh
E) the secret conversations held in the Great Hall

Tapşırığın izahı: *3.1.4. Mətndəki əsas fikri müəyyən edir. (7-ci sinif)*

Bu, qapalı tipli test tapşırığıdır, burada verilmiş oxu mətninin əsasən nədən bəhs etdiyini müəyyən etmək tələb olunur. Mətndə, əsasən, Edinburq qalası barədə məlumatlar verildiyi üçün test tapşırığının doğru cavabı D bəndində verilmişdir.

24. Which statement is true according to the passage?

A) The "Stone of Destiny" is no longer kept in Edinburgh Castle.
B) It is forbidden to hold various ceremonies in St. Margaret's Chapel.
C) The death of Queen Margaret's husband affected her health and she died.
D) Only country's jewels and treasures were kept in the bank.
E) Saint Margaret later became the Queen in Edinburgh.

Tapşırığın izahı: *3.1.4. Mətndəki fakt və hadisələri təhlil edir. (10-cu sinif)*

Bu, qapalı tipli test tapşırığıdır, burada mətnə əsasən doğru fikri müəyyən etmək tələb olunur. Verilmiş fikirlərdən yalnız **"The death of Queen Margaret's husband affected her health and she died."** Doğrudur. Buna görə də test tapşırığının doğru cavabı C bəndində verilmişdir.

25. Choose the correct variant according to the passage.

Edinburgh Castle … .

A) is located on a volcano which is no longer active
B) is the oldest building in the world
C) was built to the memory of the king who died of a broken heart
D) was home only to Queen Margaret and her husband
E) was built by Queen Margaret's son

Tapşırığın izahı: 3.1.4. Mətndəki əsas fakt və hadisələri seçir, qruplaşdırır. (8-ci sinif)

Bu, qapalı tipli test tapşırığıdır, burada verilmiş cümləni mətnə əsasən tamamlamaq tələb olunur. Burada verilən cümlə Edinburq qalası ilə bağlıdır. Buna görə də verilən variantlardan yalnız **"is located on a volcano which is no longer active"** doğrudur. Beləliklə, test tapşırığının doğru cavabı A bəndində verilmişdir.

26. Choose the correct answer to the question according to the passage.
What does the legend say about the "Stone of Destiny"?
A) The stone was never touched throughout the history.
B) The "Stone of Destiny" is hardly ever used during royal ceremonies.
C) King David I used this stone for building the Chapel.
D) The "Stone of Destiny" must be kept separately.
E) A fake stone was put into the place of the real one.

Tapşırığın izahı: 3.1.4. Mətndəki fakt və hadisələri təhlil edir. (10-cu sinif)
Bu, qapalı tipli test tapşırığıdır, burada verilən suala mətnə əsasən cavab vermək tələb olunur. Burada "Ləyaqət daşı" barədə əfsanədə nə deyildiyi soruşulur. Sualın düzgün cavabı **"A fake stone was put into the place of the real one."** olduğu üçün testin doğru cavabı E bəndində verilmişdir.

Fulfil the tasks number 27 – 30 in the "Answer sheets".

27. Complete the sentence by using (a) different word(s) and structure according to the passage.
In Queen Margaret's honour … .

Tapşırığın izahı: *4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur. (5-ci sinif)*
4.1.3. Sözləri orfoqrafiya qaydalarına uyğun olunur. Testin doğru cavabı **"after her death the Chapel was constructed by her son"** cümləsidir.

28. Write an answer to the question by using (a) different word(s) and sentence structure according to the passage.
What was the purpose of the small window known as "the laird's lug"?

Tapşırığın izahı: *3.1.4. Mətndəki fakt və hadisələri təhlil edir. (10-cu sinif)*
4.1.1. Verilmiş sözləri məna və qrammatik cəhətdən əlaqələndirərək cümlələr qurur. (5-ci sinif)
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır, burada verilmiş suala mətnə əsasən struktur və söz dəyişikliyi etməklə cavab vermək tələb olunur. Burada "lordun qulağı" adlanan balaca pəncərənin məqsədinin nə olduğu soruşulur, sualın doğru cavabı **"it was used for listening to the talks in the Great Hall"** kimidir.

29. Which word from paragraph 3 best fits to the following definition "*a story from ancient times about people and events,that may or may not be true*"?
Tapşırığın izahı: *3.1. Oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş etdirir. (5-9-cu siniflər)*
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır, burada III paraqrafda izahı verilmiş sözü seçib yazmaq tələb olunur. İzahı verilmiş söz **"legend"** sözüdür.

30. Write the opposite meaning of the word "*outside*" from paragraph 1.

Tapşırığın izahı: 3.1.1. *Mətndəki yeni ifadə və terminlərin mənasını müəyyənləşdirir. (10-cu sinif)*
Bu, cavabı yazı ilə ifadə olunan test tapşırığıdır, burada verilmiş sözün həmin paraqrafda verilmiş əks mənasını seçib yazmaq tələb olunur. "Outside" sözünün həmin paraqrafda verilən əks mənası **"inside"** sözüdür.

Azərbaycan dili

31. Cümlələrdən birində mübtədanın əlavəsi işlənmişdir:
A) Yaradıcı adamlar gördükləri və eşitdikləri haqqında qeydlər aparırlar.
B) Meydana yığışmış gənclər – Azərbaycanın mərd övladları birlik nümayiş etdirdilər.
C) Gəmi ağır yüklü qatarlardan başqa, üç yüzədək sərnişin – fəhlə və dənizçi də götürdü.
D) Yarışda fərqlənənlərə – Tahir və Köçəriyə də mükafat verildi.
E) Şirəli dayı yenə də öz işi ilə, yəni əkin-biçinlə məşğul olurdu.

Mövzu: Cümlə üzvlərinin əlavəsi
Sinif : 8
Standart : 4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələrindən istifadə edir.
İzah : *Yaradıcı adamlar gördükləri və eşitdikləri haqqında qeydlər aparırlar, Gəmi ağır yüklü qatarlardan başqa, üç yüzədək sərnişin – fəhlə və dənizçi də götürdü, Yarışda fərqlənənlərə – Tahir və Köçəriyə də mükafat verildi, Şirəli dayı yenə də öz işi ilə, yəni əkin-biçinlə məşğul olurdu* cümlələrinin heç birində mübtədanın əlavəsi işlənməmişdir. *Meydana yığışmış gənclər – Azərbaycanın mərd övladları birlik nümayiş etdirdilər* cümləsində mübtəda (gənclər) əlavəli (Azərbaycanın mərd övladları) işlənmişdir.
Düzgün cavab: Meydana yığışmış gənclər – Azərbaycanın mərd övladları birlik nümayiş etdirdilər.

32. "*Söhbətlərdən çıxan nəticə budur ki, indi savadlı mütəxəssislərə çox böyük ehtiyac var*" cümləsi ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Baş cümlə 〰 ⎯ ═ sxeminə uyğundur.
B) Budaq cümlə 〰〰------ ═ sxeminə uyğundur.
C) Baş cümlə ismi xəbərlidir.
D) Budaq cümlə baş cümləyə bağlayıcı ilə bağlanıb.
E) □←○ sxeminə uyğundur.

Mövzu: Tabeli mürəkkəb cümlə
Sinif : 8; 9
Standart : 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir; 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.
İzah : *Söhbətlərdən çıxan nəticə budur ki, indi savadlı mütəxəssislərə çox böyük ehtiyac var* cümləsi tabeli mürəkkəb cümlədir. □←○ sxeminə uyğundur. Baş cümlə ismi xəbərlidir. Budaq cümlə baş cümləyə bağlayıcı ilə bağlanıb. Baş cümlə 〰 ⎯ ═ (söhbətlərdən çıxan – təyin; nəticə – mübtəda; budur – xəbər) sxeminə uyğundur. Budaq cümlə (indi – zərflik; savadlı – təyin; mütəxəssislərə – tamamlıq; böyük – təyin; ehtiyac – mübtəda; var – xəbər) 〰〰------ ═ sxeminə uyğun deyil.
Düzgün cavab: Budaq cümlə 〰〰------ ═ sxeminə uyğundur.

33. Frazeoloji birləşmələrdən biri "*hövsələdən çıxmaq*" ifadəsinin sinonimidir:
A) səbir kasası daşmaq
B) ağız büzmək
C) dilə gəlmək
D) ürəyi yerindən çıxmaq
E) dilə düşmək

Mövzu: Frazeoloji birləşmələr
Sinif : 5
Standart : 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
İzah : *Hövsələdən çıxmaq* frazeoloji birləşməsinin sinonimi *səbir kasası dolmaq* ifadəsidir.
Düzgün cavab: səbir kasası daşmaq

34. Sual ədatı işlənmiş cümlələri müəyyən edin.
1. Görəsən, onu tapdılar?
2. Nə üçün Məmməd işdən çıxdı?
3. Məgər bütün bunlar aydın deyil?
4. Bəs müəllim olmaq istəmirdin?
5. Sən necə əsərləri xoşlayırsan?
6. Maraqlıdır, o bizimlə razılaşacaqmı?
A) 1, 3 B) 3, 4, 6 C) 4, 5 D) 1, 5, 6 E) 2, 3, 4

Mövzu: Ədat
Sinif : 7
Standart : 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
İzah : *Görəsən, onu tapdılar ?*(sual intonasiyası), *Nə üçün Məmməd işdən çıxdı?*(sual əvəzliyi), *Sən necə əsərləri xoşlayırsan* (sual əvəzliyi) cümlələrində ədat işlənməmişdir. ***Məgər*** *bütün bunlar aydın deyil?* ***Bəs*** *müəllim olmaq istəmirdin? Maraqlıdır, o bizimlə razılaşacaq* ***mı****?*cümlələrində sual ədatı işlənmişdir.
Düzgün cavab: 3, 4, 6

35. Hansı nümunələrdə həm bağlayıcı, həm də bağlayıcı ilə omonim olan köməkçi nitq hissəsi işlənmişdir?
1. Tələb budur ki, idarəyə verilən ərizə gərək latın əlifbası ilə yazılsın.
2. Babam ancaq Füzuli və Ağdama avtobus reysləri açılanda doğma torpaqları ziyarət etdi.
3. Kim ki insanı sevər, aşiqi hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur.
(M.Ə. Sabir)
4. Mən ki damdan, bacadan baxmaz idim,
Su kimi hər tərəfə axmaz idim. (M.Ə. Sabir)
5. Otların hamısı, habelə boynubükük bənövşələr də dirçəlmişdi.
A) 1, 4, 5 B) 2, 3, 4 C) 1, 2, 5
D) 3, 4, 5 E) 1, 2, 3

Mövzu: Köməkçi nitq hissələri
Sinif : 7
Standart : 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
İzah : *Tələb budur ki, idarəyə verilən ərizə gərək latın əlifbası ilə yazılsın* cümləsində "ki" bağlayıcı, "ilə" isə bağlayıcı ilə omonimliyi olan qoşma – köməkçi nitq hissəsidir. *Babam ancaq Füzuli və Ağdama avtobus reysləri açılanda doğma torpaqları ziyarət etdi* cümləsində "və" bağlayıcı, "ancaq" bağlayıcı ilə omonimliyi olan ədat – köməkçi nitq hissəsidir.
Kim ki insanı sevər, aşiqi hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur cümləsində "də" bağlayıcı, "ki" bağlayıcı ilə omonimliyi olan ədat – köməkçi nitq hissəsidir. *Mən ki damdan, bacadan baxmaz idim,*
Su kimi hər tərəfə axmaz idi cümləsində bağlayıcı işlənməmişdir. *Otların hamısı, habelə boynubükük bənövşələr də dirçəlmişdi* cümləsində bağlayıcı (habelə) işlənsə də, bağlayıcı ilə omonimliyi olan söz işlənməmişdir.

Düzgün cavab: 1, 2, 3

36. Hansı cümlədə feili bağlama ***yoxdur***?
A) İbrahim üzə-üzə o biri sahilə çatdı.
B) O danışdıqca rahatlaşırdı.
C) Qoşunlar təmas xəttində üz-üzə dayandılar.
D) Aslan gedərkən qardaşını da özü ilə apardı.
E) Uşaqlar gülə-gülə oyunlarını davam etdirdilər.

Mövzu: Feili bağlama
Sinif : 7
Standart : 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.
İzah : *İbrahim üzə-üzə o biri sahilə çatdı* cümləsində "üzə-üzə", *O danışdıqca rahatlaşırdı* cümləsində "danışdıqca", *Aslan gedərkən qardaşını da özü ilə apardı* cümləsində "gedərkən", *Uşaqlar gülə-gülə oyunlarını davam etdirdilər* cümləsində "gülə-gülə" sözləri feili bağlamadır. *Qoşunlar təmas xəttində üz-üzə dayandılar* cümləsində feili bağlama işlənməmişdi
Düzgün cavab: Qoşunlar təmas xəttində üz-üzə dayandılar.

37. Hansı cümlələrdə qoşma ilə işlənmiş feili birləşmə zaman zərfliyinin ifadə vasitəsidir?
1. Yeməkdən sonra qonaqlar həyətdə qalanmış tonqalın ətrafına toplaşdılar.
2. Narahat olmağından əvvəl heç kimin xəbəri yox idi.
3. Onunla görüşəndən bəri xeyli ürəkləndim.
4. Çox çalışıb tezliklə istəyimizə nail ola bilərik.
5. Torpaqlarımız azad olunandan sonra Qarabağda quruculuq işlərinə başlanıldı.

A) 3, 5 B) 1, 2, 4 C) 1, 4, 5 D) 2, 3 E) 2, 4, 5

Mövzu: Mövzulararası əlaqə
Sinif : 7; 8
Standart : 4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir; 4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.
İzah : *Yeməkdən sonra qonaqlar həyətdə qalanmış tonqalın ətrafına toplaşdılar* cümləsində qoşma ilə işlənmiş isim, *Narahat olmağından əvvəl heç kimin xəbəri yox idi* və *Çox çalışıb tezliklə istəyimizə nail ola bilərik* cümlələrində zaman zərfi zaman zərfliyinin ifadə vasitəsidir. *Onunla görüşəndən bəri xeyli ürəkləndim* və *Torpaqlarımız azad olunandan sonra Qarabağda quruculuq işlərinə başlanıldı* cümlələrində qoşma ilə işlənmiş feili birləşmə zaman zərfliyinin ifadə vasitəsidir.
Düzgün cavab: 3, 5

38. Vurğusuna görə mənası dəyişən, eyni nitq hissəsinə aid olan sözü müəyyən edin.
A) dama-dama B) dönə-dönə C) satirik
D) çaparaq E) elektrik

Mövzu: Mövzulararası əlaqə
Sinif : 5
Standart : 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
İzah : *Dönə-dönə* vurğusu dəyişmədən zərf və feil kimi işlənə bilən sözdür. *Satirik* sözü vurğudan asılı olaraq sifət və isim, *dama-dama* sözü sifət və feil, *çaparaq* sözü zərf və feil kimi işlənə bilir. *Elektrik* sözü vurğusuna görə mənası dəyişən söz olsa da, hər iki halda isimdir.
Düzgün cavab: elektrik

39. Klasterə əsasən nöqtələrin yerinə yazıla biləcək fikirləri müəyyən edin.

	Müəyyən miqdar sayıdır.
1.	Özündən sonra gələn isim cəm şəkilçisi qəbul etmir.
	2. .....

A) 1. tək; 2. Köməkçi nitq hissəsi kimi də işlənə bilir.
B) 1. ikilik; 2. Cümlə üzvü kimi, əsasən, təyin olur.
C) 1. birinci; 2. Əsasən, təkdə olan isimlə işlənir.
D) 1. səksən; 2. Numerativ sözlərlə işlənə bilir.
E) 1. beş; 2. Bəzən cümlənin feili xəbəri olur.

Mövzu: Say
Sinif : 6
Standart : 4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.
İzah :*Tək, ikilik, birinci* müəyyən miqdar sayı deyil. Beş cümlənin ismi xəbəri ola bilər.
Səksən müəyyən miqdar sayıdır, özündən sonra gələn isim cəm şəkilçisi qəbul etmir, numerativ sözlərlə işlənə bilir.
Düzgün cavab: 1. səksən; 2. Numerativ sözlərlə işlənə bilir.

40. Hansı sırada bütün sözlərin tələffüz forması düzgündür?
A) [ica:zə], [sərgi], [çökəklix′]
B) [k′arifey], [türx′], [polad]
C) [fəvva:rə], [paraşüt], [şərtdəşməx′]
D) [ayağaltı], [qumbara], [protakol]
E) [hirsli], [pencəy], [süqut]

Mövzu: Fonetika
Sinif : 5
Standart : 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.
İzah : [çökəklix′] sözü [çökəx′lix′], [türx′] sözü [türk], [polad] sözü [polat], [protakol] sözü [pratak′ol] [hirsli] sözü [hirsdi], [pencəy] sözü [pencəx′] kimi tələffüz olunmalıdır. [fəvva:rə], [paraşüt], [şərtdəşməx′] sözlərinin tələffüz forması düzgün verilmişdir.
Düzgün cavab: [fəvva:rə], [paraşüt], [şərtdəşməx′]

41 – 50 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.

Qayanın o biri üzü

Meşənin içi ilə gəlirsən, gəlirsən, döngəni burulan kimi Niyal kəndi görünməlidir. Ancaq görünmür, həmin dirsəkdəki böyük qaya mane olur. Qışda meşə ▲ *yarpaqsız qalanda* ağacların arasından Niyalı görüb heyran olursan. Yazda isə bir tərəfdən yarpaqlar, o biri yandan qaya Niyalın qarşısına pərdə çəkir. Burada səs-səmir eşidilmir, meşədə də, dərədə də əbədi sükut hökm sürür.

Aramsız yağan yağışlar tez-tez dağlardan çınqıl daşlarını aşağı tökür, qaya ilə dağın arasındakı yol keçilməz olurdu. Son yağışlarda isə Niyalın ətrafla əlaqəsi tamam kəsildi. Yol mühəndisləri gəlib baxdılar, çıxış yolu qayanı yerindən götürmək idi.

Qayanın, kim bilir, neçə yaşı vardı, elə bil yerdən bitib göyərmişdi, vəhşi heyvanı xatırladırdı. Deməli, traktor bir güllə ilə iki dovşan vuracaqdı[1], daşı dərəyə itələməklə həm ....., həm də ..... .

Rayonda bircə dənə yapon traktoru vardı, qayanı itələmək üçün onu gətirdilər. **Traktorçu aşağı boylandı, uçurumun dibi görünmür, yalnız dərədəki çayın güclü qıjıltısı eşidilirdi.** O sarısını uddu[2], yol işçisinə dedi:

– Yox, qardaş, mən başıma iş açа bilmərəm[3], buranı belə bilmirdim.

Yol işçisi gözünü döydü:

– Bəs nə edək?

Kimsə kənardan dilləndi:

– Fuada deyin. O bu işin öhdəsindən gələr. Bu yerləri də yaxşı tanıyır.

Yol işçisi Fuadın dalınca gedəndə traktorçunun rəngi özünə gəldi.

Fuad elə bil traktorun yox, Qıratın belinə sıçradı. Elə bu vaxt qaya ■ *gurultu ilə* dərəyə uçdu, neçə ağacı sındırdı, yaraladı, kol-kosu tapdaladı, dərədən axan çayın ortasına düşdü. Özünə yol tapa bilməyən dağ çayı burulub sağa doğru axdı.

Niyal qara buluddan çıxan gün kimi ● *parıldadı*. Fuad öz doğma kəndinə heyranlıqla tamaşa etdi. Traktoru söndürən kimi qulağına səs gəldi. İpəyin, cəhrənin, lülənin, xananın, kəlağayının "səsi" idi bunlar. Bəziləri karxanalardan, əl dəzgahlarından çıxıb müasir toxucu dəzgahlarında məskən salmışdı.

İndi həmin "çaq-çuq" Fuadın qulağına dəyəndə zarafatla dedi: "Bax ey, bilsəydim, sexin səsi basacaq buranı, daşa toxunmazdım". Traktorun yönünü düzəldib yerə hoppandı, traktorçunu məzəmmət elədi:

– Qardaş, yaponlar bilsələr, onların traktorunu belə saxlayırsan, bağırları partlayar. Heyifdir.

Fuad kəndə tərəf üz tutdu. Adamlar yolun genişlənməyindən bir az əvvəl xəbər tutmuşdular. Qarşıdan, arxadan gələn maşınlar Fuadın yanından keçəndə onu salamlamaq üçün siqnal verirdilər. Fuad yoldan çıxıb meşənin içindən kəndə enən cığıra düşdü. Yarpaqlar son bahar nəğməsini oxuyurdu.

41. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*	*Ehtimaldır*
1. Təbiət hadisəsi problem yaradır. 2. Kənd əhalisi sənətkarlıqla məşğul olur.	3. Döngədəki qayanı sel suları bir gün əvvəl gətirib. 4. Fuad kəndə üz tutanda kəndin adamları yolun açıldığını bilirdilər.	5. Fuadın sənəti traktorçuluqdur. 6. Hadisə payızda baş verir.

A) 1, 2, 4, 6 B) 1, 2, 3, 5 C) 2, 4, 5
D) 1, 3, 4, 6 E) 3, 5, 6

Sinif : 6
Standart : 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
İzahı: *Təbiət hadisəsi problem yaradır* və *Kənd əhalisi sənətkarlıqla məşğul olur* fikirləri doğru; *Döngədəki qayanı sel suları bir gün əvvəl gətirib* fikri yanlış; *Fuadın sənəti traktorçuluqdur* fikri isə mətnə əsasən ehtimaldır.
Fuad kəndə üz tutanda kəndin adamları yolun açıldığını bilirdilər fikri doğrudur. *Hadisə payızda baş verir (*Yarpaqlar son bahar nəğməsini oxuyurdu) fikri ehtimal deyil. Hər iki fikir cədvəlin uyğun xanasına yazılmayıb.
Düzgün cavab: 1, 2, 3, 5

42. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.



A) 2, 5, 6 B) 1, 3, 5 C) 1, 2, 4
D) 2, 3, 4 E) 1, 5, 6

Sinif : 9
Standart : 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
İzahı: Fuad bacarıqlı insan kimi tanınır, amma qayanın yoldan götürülməsinin təşkilatçısı deyil. Əraziyə bələddir. Təhlükənin üzərinə gedir. Yapon traktorunun sürücüsü əraziyə bələd deyil, təklükənin üzərinə getməyə qorxur, etimadı doğrulda bilmir, çətinliklə qarşılaşanda məsuliyyətdən boyun qaçırır.
Düzgün cavab: 1, 5, 6

43. Mətnin giriş və nəticə hissələri ilə bağlı ortaq fikirləri müəyyən edin.

1. Məcazdan istifadə edilib.
2. Mənzərənin təsviri üstünlük təşkil edir.
3. Obrazın xarakteri və görünüşü ilə bağlı müəyyən məlumat əldə etmək olur.
4. Aid olduğu üslubun səciyyəvi cəhətləri özünü göstərmişdir.

A) 1, 4 B) 1, 3 C) 2, 4 D) 2, 3 E) 1, 2

Sinif : 7; 11
Standart : 2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir; 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə edir, qiymətləndirir.
İzahı: Mətnin giriş və nəticə hissələrində məcazdan istifadə edilib və aid olduğu üslubun səciyyəvi cəhətləri özünü göstərmişdir. Mənzərənin təsviri girişdə üstünlük təşkil edir. Nə giriş, nə də nəticədə obrazın xarakteri və görünüşü ilə bağlı məlumat əldə etmək olur.
Düzgün cavab: 1, 4

44. Cümlələrin birində mətndə çərçivə daxilində olan söz kontekstdəki mənasına uyğun işlənmişdir:
A) Karxananın qabağındakı adam dərini suya basırdı.
B) Uşaqlar itləri daşa basırdılar.
C) Həyətdə yanan ocağın tüstüsü aləmi basmışdı.
D) O, pulu uşağın ovcuna basdı.
E) Həkim əlindəki tənzifi yaranın üstünə basdı.

Sinif : 9
Standart : 2.1.1. Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
İzahı: Mətndə çərçivə daxilində olan söz kontekstdəki mənasına uyğun *Həyətdə yanan ocağın tüstüsü aləmi basmışdı* cümləsində işlənmişdir.
Düzgün cavab: Həyətdə yanan ocağın tüstüsü aləmi basmışdı.

45. Hansı cümlə ilə mətnin ən azı 2 abzasını genişləndirmək olar?
A) Onun öz evində də babasından qalma kəlağayı dəzgahı vardı.
B) Qaya düz uçurumun ağzında idi, yolu da əməlli-başlı daraltmışdı.
C) Elə bil Əmrəki dağı gəlib öz gözəlliyi ilə gözünün qabağında durdu.
D) "Mən bu qayanı buradan mütləq götürməliyəm..." – deyə Fuad öz-özünə düşündü.
E) Niyalda qarşılaşdığı insanların xoş təbəssümü Fuadı çox sevindirirdi.

Sinif : 9
Standart : 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
İzahı: *Qaya düz uçurumun ağzında idi, yolu da əməlli-başlı daraltmışdı* cümləsi ilə bir neçə abzası (II, III, IV) genişləndirmək olar.
Düzgün cavab: Qaya düz uçurumun ağzında idi, yolu da əməlli-başlı daraltmışdı.

46 – 50 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.

46. Mətndə nöqtələrin yerinə məzmuna uyğun fikirlər yazmaqla cümləni tamamlayın.

Sinif : 11
Standart : 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
Ehtimal olunan cavablar: Daşı dərəyə itələməklə Niyalın üzündəki pərdə götürüləcək (Niyal kəndi aydın görünəcəkdi, Niyalın gözəlliyi görünəcəkdi, Niyal kəndinin qarşısı açılacaqdı);
Niyal kəndi ilə əlaqə bərpa olunacaqdı;
Qaya aradan qaldırılmış olacaqdı;
Yol genişlənəcəkdi (yol açılacaqdı) və s.

47. Mətndə üzərində rəqəm yazılmış ifadələrin qarşılığını (ifadə etdiyi mənanı) müəyyən edib yazın.

Sinif : 8
Standart : 2.1.1. Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir.
Ehtimal olunan cavablar: 1. eyni vaxtda iki işi birdən görmək, bir hərəkətlə iki problemi həll etmək, eyni vaxtda müsbət nəticələnən iki işi görmək;
2. qorxmaq, vahimələnmək, vahiməyə düşmək, qorxuya düşmək, dəhşətə gəlmək, ödünü udmaq, güclü qorxu hissi keçirmək, bərk qorxmaq;
3. həyatını təhlükəyə atmaq, özünü təhlükəyə atmaq, özünü işə salmaq, risk etmək, özünü oda salmaq, özünü oda atmaq, çətin vəziyyətə salmaq, dolaşığa salmaq, başını bəlaya salmaq, başına oyun açmaq, başını cəncələ salmaq.

48. *"Təbiətə məcburi müdaxilə arzuolunmaz nəticələrə yol açа bilər"* ifadəsini mətnlə əlaqələndirib fikrinizi yazın.

Sinif : 6
Standart : 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
Ehtimal olunan cavablar: Mətndən də göründüyü kimi, genişləndirmək məqsədilə qayanı yerindən tərpədirlər. Bu zaman neçə ağac sındırılır. Qaya gedib çayın dərədən keçən hissəsinin ortasına düşür. Dağ çayının yolunu dəyişməsinə səbəb olur.

49. Mətndə əvvəlində işarə qoyulmuş ifadələri mətnin üslubuna uyğun obrazlı ifadələrlə əvəz edib yazın.

Sinif : 10; 11
Standart : 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir; 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
Ehtimal olunan cavablar:
▲ öz donunu soyunanda, çılpaqlaşanda, paltarını soyunanda;
■ hay-həşir qopara-qopara, çığır-bağır salaraq, aləmə səs salaraq, haray-həşir sala-sala, qulaq batırıcı səslə, nərilti ilə, kükrəyərək (kükrəmə);
● bərq vurdu, işıq saçdı, şəfəq saçdı, şəfəq saldı, nur saçdı.

50. Mətnə əsasən sxemi tamamlayın (√) və seçiminizi əsaslandırın.
Sinif : 7
Standart : 3.1.3. Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir.



Ehtimal olunan cavablar: Təkzib edir.
Giriş hissədə ətrafın səssiz olduğu, əbədi sükutun hökm sürdüyü deyilir. Tünd-qara hərflərlə verilmiş cümlədə isə çayın güclü qıjıltısının eşidildiyi yazılır (Mətnin giriş hissəsində meşənin və dərənin əbədi sükuta qərq olunduğu deyilsə də, tünd-qara hərflərlə verilmiş cümlədə dərədən çayın güclü qıjıltısının eşidildiyi fikri öz əksini tapır məzmunlu və s. fikirlər)

51 – 60 saylı tapşırıqları aşağıdakı mətnə əsasən cavablandırın.

Telekinez: reallıq, yoxsa illüziya?

Telekinez – fiziki təmas olmadan bir şəxsin materiyaya təsir göstərə bilməsidir. Məsələn, əgər bir şəxs telekinetik olsa, hər hansı əşyanı ona toxunmadan tərpətməyi bacarar.

Tarixdə telekinetik bacarıqlarının olduğunu iddia edən minlərlə insan olub. Onlar fikrin gücü ilə əşyalara

hökm edə bildiklərini iddia etmiş, şou-nümayişlər göstərmiş, insanları özlərinə inandırmışlar**. Lakin belələrinin saxtakarlığı ya öz etirafları, ya da insanların müşahidəsi və həyat təcrübəsi nəticəsində təkzib edilmişdir.** Məsələn, italyan Evsapiya Palladino seanslarında masanı telekinezlə deyil, ayaqları ilə hərəkət etdirirdi. ❶ Yəhudi əsilli Yuri Qeller isə uzun müddət insanları aldatdıqdan sonra öz meneceri tərəfindən ifşa edildi və adi gözbağlayıcı fəndlər işlətdiyi məlum oldu. ❷

Təbii ki, bu işə sənət kimi yanaşan insanlar da var. Devid Bleyn, Devid Kopperfild kimi böyük fokus ustaları göstərdikləri nömrələrin yaxşı hazırlanmış bir gözbağlayıcı fənd olduğunu bildirmiş, bəzən hətta sirlərini açıqlamışlar. ❸

Bəs belə nömrələrlə insanları aldadan fırıldaqçıların uğurlarının səbəbi nədir? Əslində, bu insanlar çox zaman qeyri-adi bacarığa malik olduqlarına, qazandıqları nailiyyətlərə özləri də inanırlar. Özünü aldadan insan asanlıqla başqalarını da aldada bilir. Təəssüf ki, biz insanlar çox vaxt möcüzə gözləyirik. ❹ Maraqlı faktdır ki, etdiklərini fövqəladə qüvvələrlə bağlayan tək bir şəxs belə indiyə kimi öz bacarıqlarını elmi cəhətdən sübuta yetirə bilməmişdir. Belə insanlar çox vaxt ən adi fiziki qanunlardan xəbərsiz olurlar.

Bəs beyinin gücü ilə əşyaları hərəkət etdirmək elmi cəhətdən mümkündürmü? Məlumdur ki, beynimiz elektromaqnit enerjisindən təsirlənən elektrik xassəli fəaliyyətə malikdir. Lakin yalnız beynimizdəki elektrik gücündən və ya maqnit cazibəsindən istifadə edərək hər hansı fiziki hadisəni törədə bilməyimiz mümkün deyil. ❺ Belə ki, beyindəki elektrik axını sadəcə 1 nanoamper miqdarındadır. Əgər beynimizdəki 100 milyarda qədər neyronun hamısını eyni vaxtda çalışdırsaq, eyni fəaliyyətə yönəldə bilsək belə, yaranacaq elektrik yalnız bir LED lampanı qısa zaman ərzində işıqlandıra bilər. Beynimizdəki maqnit sahəsinin təsir gücü də həddindən artıq zəif olduğundan bu işdə bizə kömək edə bilməz.

Bütün bunlara baxmayaraq, elmin qapıları hər zaman hər kəsə açıqdır və bir gün kimsə indiyə qədər hər kəsin qəbul etdiyi fikirlərin üstündən xətt çəkə, yeni fikir ortaya qoya bilər. Əlbəttə ki, yalnız elmin metodologiyasına uyğun olmaq şərti ilə.

51. Mətndə tünd-qara hərflərlə yazılmış cümlə əsasında müəyyən edin:
1. Cümlədə kontekstə uyğun olmayan söz və həmin sözün mənası;
2. Həmin sözü əvəz edə bilən ifadə.

A) 1. müşahidə – diqqətlə baxma, nəzər yetirmə, seyr etmə; 2. baxış
B) 1. etiraf – öz qüsur və nöqsanını, az-çox özünün günahı olan bir şeyi inkar etməyib, qəbul etmə; 2. boynuna almaq
C) 1. saxtakarlıq – saxta iş görmə; 2. yalançılıq
D) 1. təcrübə – sınama; 2. sınaq
E) 1. təkzib edilmək – bir məlumatın yalan olduğunu çıxış, məqalə və s. ilə sübut edilməsi; 2. təsbit edilmək

Sinif : 8; 9
Standart : 2.1.1. Mətndə tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir; 2.1.1. Mətndə tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.
İzahı: Mətndə tünd-qara hərflərlə yazılmış cümlədə "təkzib edilmək" sözü kontekstə uyğun olmayan ifadədir. Həmin söz "təsbit edilmək" sözü ilə əvəz edilə bilər.
Düzgün cavab: 1. təkzib edilmək – bir məlumatın yalan olduğunu çıxış, məqalə və s. ilə sübut edilməsi; 2. təsbit edilmək

52. Mətnin strukturunu dəqiqləşdirmək üçün hansı düzəliş aparılmalıdır?

A) Əsas hissədə birinci və üçüncü abzasların yeri dəyişdirilməlidir.
B) Giriş hissədən məntiqi əlaqəni pozan cümlə çıxarılmalıdır.
C) Giriş hissənin sonuna əsas hissə ilə əlaqə yaradan cümlə əlavə edilməlidir.
D) Əsas hissənin üçüncü abzası iki abzas şəklində verilməlidir.
E) Nəticə hissə iki abzasa ayrılmalıdır.

Sinif : 11
Standart : 3.1.3. Mətni üslubi və struktur cəhətdən təkmilləşdirir.
İzahı: Əsas hissənin üçüncü abzası iki abzas şəklində verilməlidir. "Maraqlı faktdır" ifadəsi ilə növbəti abzas başlamalıdır.
Düzgün cavab: Əsas hissənin üçüncü abzası iki abzas şəklində verilməlidir.

53. "*Beynimizin aldadılmağa nə qədər açıq olduğunu göstərən məqamlardan biri də budur*" cümləsi hansı rəqəmin yerinə yazılsa, məntiqi əlaqə ***pozulmaz***?

A) ❸ B) ❷ C) ❶ D) ❹ E) ❺

Sinif : 9
Standart : 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.
İzahı: *"Beynimizin aldadılmağa nə qədər açıq olduğunu göstərən məqamlardan biri də budur*" cümləsi 4-cü rəqəmin yerinə yazılsa, məntiqi əlaqə pozulmaz**.**
Düzgün cavab: ❹

54. Hansı fikirlərin yeri dəyişilsə, cədvəldəki ***uyğunsuzluq*** aradan qalxar?

Mətndə bu haqda məlumat var	*Mətndə bu haqda məlumat yoxdur*
1. Elmə əsaslanan düşüncə qəbul edilə bilər. 2. Diqqətli və təcrübəli insanları aldatmaq o qədər də asan deyil. 3. Elm adamları telekinetikləri mütəmadi olaraq tənqid edirlər.	4. Hər kəs istənilən əşyanı ona toxunmadan hərəkət etdirməyi bacarır. 5. Möcüzələrə inananlar reallığı qəbul etməkdə çətinlik çəkirlər.

A) 3↔5 B) 2↔4 C) 2↔5 D) 1↔4 E) 1↔3

Sinif : 6
Standart : 2.2.1. Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.
İzahı: Mətndə qeyd edilir ki, elmə əsaslanan düşüncə qəbul edilə bilər. Diqqətli və təcrübəli insanları aldatmaq o qədər də asan deyil. Möcüzələrə inananlar reallığı qəbul etməkdə çətinlik çəkirlər.
Mətndə elm adamlarının telekinetikləri mütəmadi olaraq tənqid etmələri və hər kəsin istənilən əşyanı ona toxunmadan hərəkət etdirməyi bacardığı qeyd edilməmişdir.

Deməli,cədvəldəki 3 və 5-ci fikirlərin yeri dəyişilsə, cədvəldəki uyğunsuzluq aradan qalxar.
Düzgün cavab: 3↔5

55. Mətnin üslubu ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Nəticə hissədə termin sıxlığı müşahidə olunur.
2. Digər üslubun xüsusiyyəti də özünü göstərir.
3. Yalnız ixtisas sahiblərinin anlayacağı dildədir.
4. Anlaşıqlı sözlərdən daha çox istifadə olunub.
5. Qəzet, yaxud jurnal dilinə yaxındır.

A) 2, 4, 5 B) 2, 3 C) 1, 2, 4 D) 1, 3 E) 1, 2, 5

Sinif : 10
Standart : 2.1.2. Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir.
İzahı: Nəticə hissədə termin sıxlığı müşahidə olunmur. Yalnız ixtisas sahiblərinin anlayacağı dildə (elmi üslubda) deyil. Anlaşıqlı sözlərdən daha çox istifadə olunub. Qəzet, yaxud jurnal dilinə yaxındır. Digər üslubun xüsusiyyəti (elektrik axını – elmi üslub) özünü göstərir.
Düzgün cavab: 2, 4, 5

56 – 60 saylı tapşırıqları "Cavab vərəqləri"ndə cavablandırın.

56. Mətndəki obrazlara əsasən tənqid və təbliğ edilə bilən xüsusiyyətləri müəyyən edib yazın və fikrinizi əsaslandırın.

Sinif : 9
Standart : 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.
Ehtimal olunan cavablar*: Təbliğ oluna bilər*: dürüstlük (yalanını etiraf etmək, doğruları söyləmək, fırıldaqçılıq etməmək)
Əsaslandırma: Devid Bleyn, Devid Kopperfild kimi fokus ustaları göstərdikləri nömrələrin yaxşı hazırlanmış bir gözbağlayıcı fəndi olduğunu bildirmişlər, bəzən sirlərini də açıqlamışlar.
Yuri Qeller uzun müddət insanları aldadır və meneceri tərəfindən ifşa olunur.

Tənqid edilə bilər: 1. yalançılıq, saxtakarlıq, fırıldaqçılıq (insanları aldatmaq)
Əsaslandırma: E. Palladino masanı ayağı ilə itələyir, Y. Qeller adi gözbağlayıcı fəndlər işlədərək insanları aldadır.
2. savadsızlıq.
Əsaslandırma: Fiziki qanunlardan xəbərsiz olan insanlar öz "bacarıqlarını" elmi cəhətdən sübuta yetirə bilməmişlər. Onlara inanan insanlar da savadsızlıq səbəbindən şoulara tamaşa edir və qeyri-adi bacarığa malik olduqlarını düşünürlər.
3. Satqınlıq
Əsaslandırma: Yuri Qellerin meneceri Qellerin əməllərini ifşa etmişdir.

57. Mətndə çərçivədə verilmiş ifadəyə əsasən cədvəli tamamlayın.
Sinif : 10
Standart : 2.2.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətinə görə fərqləndirir.
Ehtimal olunan cavablar*:*

Mətndə işləndiyi funksiya (poetik, informativ və ya terminoloji)	***Digər funksiyası (poetik, informativ və ya terminoloji)***	***Həmin funksiyada cümlədə işlədilməsi***
